# «İkinci düşmən»ə də qalib gəlməliyik



30 illik düşmən işğalına qısa bir müddətdə son qoymağı bacarsaq da, təəssüf ki, koronavirus kimi kiçicik bir virusla aylardır savaşırıq, lakin bu savaşın hələ də sonu görünmür. Son günlər əksər ölkələrdə yoluxma halları kəskin artıb. Bəzi Avropa ölkələri sərt karantin rejimlərini bərpa edib. Əlbəttə yoluxma hallarında nəzərəçarpan artım ölkəmizdə də narahatlıq doğurur. Digər ölkələrlə müqayisədə Azərbaycanda yoluxma və ölüm halları az olsa da son həftələr infeksiyaya gündəlik yoluxma hallarının çox olması bizləri narahat etməyə bilməz. Ölkəmizdə Vətən müharibəsi başlayandan bəri infeksiyadan qorunma qaydaları ikinci plana keçib. Xüsusən də cəbhədə uğurlu əməliyyatların olması və vətəndaşlarımızın bu məsələyə münasibəti, demək olar ki, koronavirusla mübarizəni bir qədər unutdurub. Bəzi vətəndaşlarda arxayınlığın və laqeydliyin artması, gigiyena qaydalarına əməl etməməsi, xüsusi karantin rejiminin tələblərinə uymaması, maskadan istifadə olunmaması kimi hallar çətinliklə əldə olunmuş müsbət dinamikanın yenidən itirilməsinə və xəstəliyin sürətlə yayılmasına gətirib çıxarır. Necə ki, mənfur düşmənə qarşı millət olaraq, xalq olaraq birlikdə mübarizə apardıq və qalib gəldik, eləcə də karantin qaydalarına kollektiv əməl etməliyik. Ancaq bu yolla virusa qalib gələ bilərik. Kimsə özündə narahatlıq hiss edirsə bunu gizlətməməli və dərhal həkimə müraciət etməlidir.



**Azərbaycan Respublikasının ərazisində COVID-19 ilə bağlı son vəziyyət**

| Ümumi | |
|---|---|
| Ümumi yoluxanların sayı | 71580 |
| Ümumi sağalanların sayı | 53001 |
| Aktiv xəstə sayı | 17652 |
| Ümumi test sayı | 1489382 |
| Ümumi ölüm sayı | 927 |

| Bu gün | 13.11.2020 |
|---|---|
| Yeni yoluxanların sayı | 1364 |
| Yeni sağalanların sayı | 1015 |
| Bugünkü test sayı | 9744 |
| Bugünkü ölüm sayı | 22 |



Koronavirusun əsas əlamətləri bədən hərarətinin yüksəlməsi, quru və çox az miqdar bəlğəmin ifrazı ilə öskürək, yorğunluq hissi, təngnəfəslik, döş qəfəsində darlıq hissi, həmçinin boğazda ağrı, iybilmə və dadbilmənin azalması və digərlərindən ibarətdir. Bu əlamətlər mövsümi respirator virus infeksiyaları zamanı da rast gəlindiyindən yalnız həkim-mütəxəssisə müraciət etməklə və lazım gələrsə, xüsusi laborator testlər aparılmaqla xəstəliyi təsdiqləmək mümkündür. Burada əsas məqam ondan ibarətdir ki, insanlar bu əlamətləri adi soyuqlama kimi qəbul etməsinlər və özünü müalicə ilə məşğul olmasınlar.

Gəlin, kiçik bir virusun böyük qələbəmizə kölgə salmasına icazə verməyək, yenə yumruq kimi bir olaq, bu virusun da öhdəsindən tez bir zamanda gələk və sağlam qalaq!

**«Qəbələ»**

# Hörmətli Ali Baş Komandan!

Bizə - "xoşbəxtlik nədir? "- sualına çox asanlıqla, hətta fikirləşmədən cavab verməyi, bu cavabı söylədiyimiz zaman ruhumuzun, cismimizin necə xoşbəxt olduğunu duymağı nəsib etdiniz.

Bəli, əsl xoşbəxtlik budur! Siz bizə yaşatdınız əvəzi olmayan, bənzəri tapılmayan, ifadəsi çox asan bir kəlmə-Qələbə!

Biz qələbə çaldıq. Çünki xalqımız böyük inamla yaşayırdı. Bu inamı xalqa Siz aşıladınız. Və illərlə qönçə qalmış arzularımıza su səpdiniz, dirçəltdiniz və nəhayət heç vaxt sönməyən o ümid qığılcımları birdən-birə alovlandı. Budur, çiçək açdı Qarabağımız. Sözün əsl mənasında çox tez bir zamanda al-əlvan gülüstana dönəcək Qarabağımız.

Artıq biz xoşbəxtik.Əbədi əzəli bir xoşbəxtliyə qovuşdurdunuz bizi.

Sizin hər kəlməniz tarixə həkk olundu, sözləriniz şeirlərə, bəstələrə, fikirləriniz aforizmə çevrildi. Qələbə sevincini xalqınızla paylaşan zaman çöhrənizdəki o təbəssüm hər bir evdə hər bir kəsə bayram yaşatdı.

Ali təhsilli bir müəllimə olaraq mən də şagirdlərimə əsl vətənpərvərlik ruhunu, əzmkarlığı, vətənə sevgi hissləri aşılamağa çalışıram. Onlara hər birimizin vətənə -bu cür cənnət bir yurda borclu olduğumuzu xatırladıram.

Biz sizinlə fəxr edirik. İllər boyu çalışdığınız yenilməz batalyon- əsl Azərbaycan cəngavərləri heç nədən qorxmadan irəli atıldılar, döyüşdülər və budur - Qələbə qazandılar. Qarabağ Azərbaycandır! Biz birlikdə güclüyük. Biz hər zaman sizə minnətdarıq!

**Nuriyə ÇƏLƏBİZADƏ,**
**Vəndam qəsəbəsi 1 saylı tam orta məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi.**

Xalqımızın gözləri aydın olsun. Şuşamız və eləcə də, Qarabağımızın bütün rayonları azad olundu. Qalibiyyətli Azərbaycan ordumuz, Ali Baş Komandanımızın rəhbərliyi ilə zəfər bayramı əldə etdi. Bu məqamda hər bir insanın qəlbində belə bir şüar səslənir: Eşq olsun Ali Baş Komandanımıza, eşq olsun Azərbaycan Ordusuna. Bəli, bu gün inamla deyirik: Qarabağ Azərbaycandır!

Doğma Şuşamız tarix boyu işğalçıların hücümüna məruz qalıb, dəfələrlə dağıdılıb. 30 illik həsrətdən sonra Şuşa öz igid oğullarının əlindədir. Cənab Prezidentimizin dediyi kimi, əziz Şuşamız, səni göz bəbəyi kimi qoruyacayıq, daha da inkişaf etdirəcəyik.

Şuşanın işğalı dövründə, Şuşa həsrəti ilə ürək yanğısı keçirən şair Akif Məftunun Şuşaya qayıdışımıza həsr etdiyi şeirində qeyd edib.

# Zümrüd taclı Şuşam mənim

*Şərəfi, vicdanı,arı atanlar,*
*Özgənin gücüylə dağa qonanlar,*
*Qaçıb dərələrə qısıldı bu gün.*
*Dəyişdi dünyanın nizamı daha,*

*Zalım düşmənimiz basıldı bu gün.*
*Uğrunda canını qurban verdiyin*
*Bayrağın Şuşadan asıldı bu gün.*
*Bu gün ürək dolusu ilə deyirik Şuşaya gedirik.*

**Əhəd HƏSƏNOV,**
**Şuşa Rayon İcra Hakimiyyətinin Qəbələ rayonu üzrə nümayəndəsi.**

# Azərbaycan Alban-udi xristian dini icması Dünya Kilsələr Birliyinə müraciət ünvanlayıb

Azərbaycan Alban-udi xristian dini icması son yüz ildə Alban məbədlərinin qriqoryanlaşdırılmasının Ermənistanın dövlət siyasətinə çevrilməsi ilə bağlı Dünya Kilsələr Birliyinə müraciət ünvanlayıb.

Azərbaycan Alban-udi xristian dini icmasının sədri Robert Mobilinin müraciətində deyilir:

"Biz - Alban (Qafqaz) Apostol Müstəqil Kilsəsinin varisi olan Azərbaycan Alban-udi dini icması Azərbaycanın haqlı mövqeyini daim müdafiə edir, beynəlxalq hüquqla təsbit olunmuş ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində atdığı addımları dəstəkləyir və bu prosesdə yaxından iştirak etdiyimizi bildiririk. Eyni zamanda, Azərbaycan Silahlı Qüvvələrinin Ermənistanın işğal etdiyi şəhər və kəndlərimizi azad etməsi ölkəmizin ərazi bütövlüyünün yaxın zamanlarda tam təmin olunmasına inamımızı daha da artırır".

Müraciətdə qeyd olunur ki, Qafqazda xristianlığın rəsmi din kimi strukturlaşmasının tarixi Alban kilsəsindən başlayır. Qədim qaynaqlar təkcə Azərbaycanın deyil, bütün Qafqazın dini-mədəni həyatında silinməz izlər qoymuş Alban kilsəsi xristian dünyasında ən qədim kilsələrdən biri olduğunu sübut edir. Alban kilsəsinin qədimliyini təkcə tarixi faktlar yox, həm də mövcudluğunu dövrümüzə qədər qoruyub saxlamış qədim alban məbədləri təsdiqləyir.

Bildiririk ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən və ölkəmizdə vicdan azadlığı tam təmin olunduqdan sonra Alban Apostol Kilsəsinin statusunun bərpası və üzləşdiyimiz ədalətsizliyin aradan qaldırılması üçün tarixi fürsət yaranıb. Udi ziyalılarının təşəbbüsü ilə 2003-cü ildə Alban-udi xristian icması yaradılmış və dövlət qeydiyyatından keçmişdir. İcmanın qeydiyyatı Alban apostol avtokefal kilsəsinin dirçəldilməsi yolunda ilk addımdır.

Müraciətdə daha sonra deyilir: "Azərbaycan hökumətinin dəstəyi ilə Şəki rayonunun Kiş kəndində yerləşən və Qafqazda "kilsələrin anası" hesab olunan apostol Yelisey məbədi bərpa edilmiş, 2006-cı ildə isə udilərin kompakt halda yaşadığı Qəbələ rayonunun Nic qəsəbəsindəki "Çotari" Alban-udi kilsəsinin rəsmi açılışı olmuşdur. Təbii ki, Alban-udi xristian icmasının dirçəldilməsi və alban abidələrinin bərpası tarixi ədalətsizliyin aradan qaldırılması, ölkəmizdəki tolerantlıq mühitinin qorunub saxlanılması baxımından təkcə Azərbaycan deyil, həm də bütün xristian dünyası üçün mühüm əhəmiyyət kəsb edir.

Eyni zamanda, Azərbaycan xalqının tolerantlığı, Azərbaycan dövlətinin bütün dinlərin nümayəndələrinə olan qayğısı və dəstəyi onu deməyə əsas verir ki, erməni qriqoryan kilsəsinin mənsublarına da humanist münasibət göstəriləcəkdir. Bu hörmətin bariz nümunəsi Bakı şəhərinin mərkəzində yerləşən Azərbaycan hökuməti tərəfindən qorunub-saxlanılmış, restavrasiya olunmuş "Müqəddəs Qriqori" erməni kilsəsidir. Əsrlərboyu erməni qriqoryan kilsəsi təsir və təzyiqlərinə, mənimsəmə və saxtalaşdırmaqla Alban irsinə böyük zərbə vurmasına baxmayaraq, sülh və insanlıq naminə biz də erməni qriqoryan kilsəsi ilə əməkdaşlığa, işğaldan azad edilmiş ərazilərdə birgə yaşamağa hazır olduğumuzu bildiririk".

**AZƏRTAC**

# "Bu ölmüş adam mənim atamdır"

Bir uşaqlıq dostum vardı, atası Xocalıda vəhşicəsinə öldürülmüş, gözləri çıxarılmışdı. Xocalı qurbanlarının görüntüləri arasında onun da atasının "gözsüz" fotosu tarixə düşmüşdü. Dostumdan fərqli olaraq atam yanımda idi, hər gün məni nəfəsim kəsilənə qədər möhkəm sıxıb bağrına basırdı. Bərabər çoxlu şəkillərimiz vardı. Mənim atam bütöv idi- əlləri vardı, gözləri vardı, ayaqları, qolları vardı. Onun atasından isə sadəcə bir foto qalmışdı geriyə. Onda da bütöv deyildi. Gözləri yox idi...

Birinci Qarabağ müharibəsinin məndə buraxdığı iz məhz bu cümlə olmuşdu "Bu ölmüş adam mənim atamdır". Gerisi isə "O gün olsun..." "Gələn il bu vaxt..." la başlayan və artıq şablona çevrilən cümlələr.

Qırx beş gün əvvəl İkinci Vətən müharibəmiz başladı. İliklərimə qədər hiss etdim bu dəfə savaşı. Torpaqtorpaq, kənd-kənd, rayon-rayon, şəhər-şəhər keçdi günlərimiz. Dilimizdə dualar bitdi, bəlkə də ilk dəfə hamımız eyni şeyi hiss etdik. Bərabər ağladıq, bərabər sevindik. Və nəhayət, gün o gün oldu. Müharibə bitdi, 30 illik həsrətimiz sona çatdı. Biz qazandıq.

Bu sonluqdan məmnun qalmayan, sevinə bilməyən, gözləntiləri başqa olan, məyus hiss edənlər, xahiş edirəm, imkan verin yaşayaq.

Mən "Bu ölmüş adam mənim atamdır" cümləsini yenidən eşitmək istəmirəm hansısa uşağın dilindən. Balalarımız da o dəhşəti illər sonra yenidən yaşamasın. O qədər möhtəşəm bir tarix yaşadıq ki, son 2 ayda.

Bizim körpələrimizin bu mövzularla yaşamasını, tarixin təkrarlanmasını istəmirik. Bütöv Azərbaycanın fıravan övladları kimi böyüməsini istəyirik onların.

**Nərmin DADAŞOVA,**
**Bakı şəhəri.**